# Əsas sözlər: Özünə qulluq üçün köməkçi məhsullar

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Absorbentlər / Hopdurucu bez** | Absorbentlər/hopdurucu bez sidik və ya bağırsaq axıntısını öz içində saxlayır. Absorbentlər bir dəfəlik və ya çoxsaylı istifadə üçün ola bilər. Onlar hopdurucu bez və mələfə də adlandırıla bilər. |  |
| **Kateter** | Sidik kisəsindən sidiyi boşaltmaq üçün istifadə olunan yumşaq boru. Sidik kisəsini sərbəst şəkildə və ya öz istəyi ilə boşalda bilməyən bəzi insanlar istifadə edirlər. Kateterin növündən asılı olaraq, digər avadanlığa, məsələn, ayaq çantasına ehtiyac olur. |  |
| **Kontinensiya** | İctimai yerlərdə sidik kisəsi və bağırsağın boşalmasını şəxsin özünün könüllü şəkildə tənzimləmə qabiliyyəti. Uğurlu şəkildə tualetə getmək kimi ifadə etmək olar. | |
| **Şəxsi gigiyena** | İnfeksiyalar, sürtünmə və ya rütubətlə əlaqədar dəri zədələnməsi kimi sağlamlıq risklərini azaltmaq üçün özünü təmiz saxlamaq bacarığı. |  |
| **Təzyiq nəticəsində əmələ gələn yara** | Təzyiq nəticəsində əmələ gələn yara dərinin bütünlüyünün pozulmasıdır. O, adətən sümüklü yerin üzərində olur və hissiyyat problemi olan və ya hərəkət etməkdə və öz vəziyyətini dəyişməkdə çətinlik çəkən şəxslərdə çox rast gəlinən problemdir. | |
| **İnkontinensiya** | Şəxsin sidik kisəsini (sidik qaçırma) və ya bağırsaqlarını (nəcis qaçırma) boşaltmaqda çətinlik çəkməsi və ya onların boşalma funksiyasını tənzimləyə bilməməsi. | |
| **Özünə qulluq** | Özünə qulluq insanın öz qayğısına qalması deməkdir. Bu TAP modulunun diqqət mərkəzində şəxsin öz şəxsi ehtiyaclarına qulluq etmək üçün gündəlik olaraq yerinə yetirdiyi fəaliyyətlər dayanır. Məsələn, yuyunma, tualetə getmə, geyinmə, yemə-içmə. | |
| **Sidik kanalı** | Sidik kanalı sidik sistemimizin bir hissəsidir. Sidik, bədəndən xaric olmaq üçün sidik kanalından keçir. |  |